## KİLİMARASI OYUNU

Kilimarası oyunu aylə-məişət mövzusundadır. Məzmunu belədir ki, ər-arvad olur, bir də başqa bir kişi olur. Qadın ərinə xəyanət eliyir, kişi də bunu götürmür, arvadını öldürür. O toy olmazdı ki, orda kilimarası oynanılmasın. Gəlini gətirərdilər. Gəlini atdan düşürdərdilər, bəyi də gətirərdilər, qövsvari durardılar. O tərəfdə gəlinin ayağının altında kəsməyə qurban hazırlıyırdılar. Bəy sağdiş, soldişnən o tərəfdə durardı, gəlin də üzündə örpək burda. Gəlinin qarşısında əvvəl maral oynuyardı, sonra kilimarası oynuyardı. Bunlar kilimarasına baxannan sonra keçərdilər evə. Onnan sonra qurban kəsilərdi, digər ayinlər icra olunardı.

Kilimarasını oynatmax o qədər çətin oluf ki... Taxtanı ipnən barmağa bağlıyırdılar, o da barmaxları doğruyurdu. Taxtanın başına pambıx qoyardılar, üstünnən parça atıf sarıyardılar barmağa. Sonra uşax paltarın geyindirirdilər. Qadına yaşmaq vurardılar, kişilərin başına papax qoyardılar. Kilimarasını hazırlamaq bir saat çəkirdi. Bir neçə adam ona gərək kömək eliyərdi. Həddinən artıq əzablı oluf.

Kilimarası üç oyuğnan oynanılır. İkisi kişi fiquru olur, biri qadın fiquru. Oyuğların ikisini ələ geyinirsən, üçüncü oyuğu da ayağa. Əvvəl qadın səhnəyə çıxır. Əlindəki ağ dəsmalnan əl eliyir, camahatı salamlıyır, çalğıçıları salamlıyır. Onnan sonra zurnada heyvagülü havası çalınmağa başlayır, qadın rəqs eliyir. İndi kilim əvəzinə pərdədən istifadə olunur, amma keçmişdə kilimin arxasında oynanılırdı. Camahat da ona əl çalırdı. İki nəfər hərəsi kilimin bir tərəfindən tutuf qaldırır, onun arxasında həmin oyun oynanılırdı. Bir xeylax oynuyannan sonra gəlinin əri çıxır böyürdən. Bunlar ikisi oynuyullar, rəqs edillər, qucaqlaşıllar. Danışıq olmur, ancaq hərəkətlərnəndi. Okqədər canlı ifa olunur ki, hətta tamaşaçı onların ürəyinnən keçəni də duyur. Kişi arvadını camahatın gözü qabağında qucaxlayıf öpür, qadının acığı tutur, dalaşıllar. Kişi acığ eliyir gedir, yıxılır yatır. İşarə eliyir, zurnaçılar kəsir. Bu başdıyır ərin oyatmağa. Görür daş kimi yatıf ey, oyanmır. İşarə eliyir, çalğıçılar çalırlar, bu səfər o birisini oyadır. Həmin oyuğu da ayaxnan idarə eliyirik. Bunlar xeylax oynuyullar. Bunlar qucaxlaşıf öpüşəndə kişi böyürdən çıxır, xəncəri çəkib ikisin də öldürür.

*Söylədi: Süleymanov Süleyman Mehralı oğlu, Kəlbəcər rayonu, Ağcakənd kəndi / Qarabağ: folklor da bir tarixdir, VIII kitab (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri). Bakı, "Elm və təhsil", 2014.*